**_Vəzifəli şəxslərin və vətəndaşların_dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması qaydasının təsdiq edilməsi barədə**[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununa ~~və "Dövlət sirri haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 17 yanvar tarixli, 539 nömrəli Fərmanına~~ uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**[2]

1. "*Vəzifəli şəxslərin və vətəndaşların* dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması Qaydası" təsdiq edilsin.[3]

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 17 oktyabr 2002-ci il
162

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2002-ci il 17 oktyabr tarixli, 162 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**_Vəzifəli şəxslərin və vətəndaşların_dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması**

## QAYDASI[4]

## I. ÜMUMİ MÜDDƏALAR

1. Bu Qayda "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa, dövlət sirrinin mühafizəsi ilə əlaqədar olan münasibətləri tənzimləyən digər qanunvericilik aktlarına uyğun olaraq işlənib hazırlanmışdır və Azərbaycan Respublikasının vəzifəli şəxslərinin və vətəndaşlarının (bundan sonra - vətəndaşlar) dövlət sirri ilə işləməyə buraxılması ~~və işləməyə buraxılmasının yenidən rəsmiləşdirilməsi~~ qaydasını müəyyən edir.

Bu Qaydanın müddəaları Azərbaycan Respublikasının ərazisində və onun hüdudlarından kənarda Azərbaycan Respublikasının dövlət hakimiyyəti və yerli özünüidarə orqanları, təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq, dövlət sirri təşkil edən məlumatlarla bağlı işlər yerinə yetirən və ya belə işləri yerinə yetirmək üçün icazə almaq istəyən müəssisə, idarə və təşkilatlar (xüsusi olaraq qeyd edilən hallardan başqa, bundan sonra - təşkilatlar) tərəfindən hökmən icra edilməlidir.[5]

*Vətəndaşların xüsusi əhəmiyyətli, tam məxfi və məxfi məlumatlarla işləməyə buraxılması ilə bağlı yoxlama tədbirləri "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun 23.1.7-ci maddəsində nəzərdə tutulmuş əsasın olub-olmaması barədə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (bundan sonra - təhlükəsizlik orqanı), həmçinin xarici dövlətlərdə müvəqqəti yaşayan vətəndaşlara münasibətdə Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəyi nəzərə alınmaqla, prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğu, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti və xarici kəşfiyyat orqanında Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti tərəfindən həyata keçirilir.*[6]

*Digər dövlət hakimiyyəti orqanlarında, müəssisə, idarə və təşkilatlarda dövlət sirri ilə işləməyə buraxılış üzrə yoxlama tədbirlərini təhlükəsizlik orqanı (xarici dövlətlərdə müvəqqəti yaşayan vətəndaşlara münasibətdə Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəyini nəzərə almaqla) həyata keçirir.*[7]

2. Vətəndaşların dövlət sirri ilə işləməyə buraxılması ~~və işləməyə buraxılmasının yenidən rəsmiləşdirilməsi~~ bu Qayda ilə müəyyən olunmuş qaydada müvafiq təşkilat rəhbərləri tərəfindən həyata keçirilir.[8]

3. Vətəndaşlar dövlət sirri ilə işləməyə buraxılışla bağlı vəzifələrə, yalnız həmin vəzifəyə uyğun buraxılış forması müəyyən edilmiş qaydada rəsmiləşdirildikdən sonra təyin oluna bilərlər.

"Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun 26-cı maddəsinə uyğun olaraq, təşkilatların rəhbərləri vətəndaşların, yalnız öz vəzifə ~~(funksional)~~ borcunu yerinə yetirməsi üçün zəruri olan dövlət sirri təşkil edən məlumatlarla və yalnız lazımi həcmdə tanış olması üçün müvafiq şəraitin yaradılmasına görə fərdi məsuliyyət daşıyırlar.[9]

4. Vətəndaşların dövlət sirri ilə işləməyə buraxılması "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinə uyğun olaraq, könüllülük qaydasında həyata keçirilir və aşağıdakıları nəzərdə tutur:[10]

dövlət sirri haqqında qanunvericiliyin pozulmasına görəməsuliyyət nəzərdə tutan Azərbaycan Respublikasının qanunvericiliyi ilə tanış olması və ona etibar *ediləcək* dövlət sirri təşkil edən *məlumatları yaymayacağı* barədə dövlət qarşısında öhdəlik götürülməsi;[11]

"Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun25-ci maddəsində nəzərdə tutulan qismən və müvəqqəti məhdudiyyətlərə ~~rəsmi~~ yazılı razılıq verilməsini;[12]

onlar barəsində səlahiyyətli orqanlar tərəfindən yoxlama tədbirlərinin keçirilməsinə yazılı razılıq verilməsi;

~~**"Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuşəməkhaqqına əlavələrin və onların**~~

**~~verilməsi qaydasının müəyyənləşdirilməsini;~~**[13]

təşkilat rəhbəri tərəfindən dövlət sirri ilə işləməyə buraxılma haqqında qərar qəbul edilməsi.

*Vətəndaşın ona etibar ediləcək dövlət sirri təşkil edən məlumatları yaymayacağı barədə dövlət qarşısında götürdüyü öhdəliyi onunla işəgötürən arasında bağlanan əmək müqaviləsində, işə (xidmətə) qəbul əmək müqaviləsi ilə həyata keçirilmədikdə isə iltizamnamədə əks olunur. Dövlət sirri ilə işləməyə buraxılışı olmayan şəxsin dövlət sirrindən istifadə ilə bağlı vəzifəyə təyin edilməsinə yol verilmir.*[14]

Yoxlama tədbirlərinin həcmi *dövlət sirri ilə işləməyə* buraxılışı rəsmiləşdirilən şəxsin işləməyə buraxılacağı məlumatların məxfilik dərəcəsindən asılıdır. *Azərbaycan Respublikasının Baş Prokurorluğunda, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətində, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətində və Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətində dövlət sirri ilə işləməyə buraxılış üzrə yoxlama tədbirlərinin həcmi və keçirilmə qaydası bu orqanlar tərəfindən hazırlanır və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya ilə razılaşdırılmaqla təsdiq edilir.*[15]

*Digər dövlət hakimiyyəti orqanlarında, müəssisə, idarə və təşkilatlarında dövlət sirri ilə işləməyə buraxılış üzrə yoxlama tədbirlərinin həcmi və keçirilmə qaydası təhlükəsizlik orqanı tərəfindən hazırlanır və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya ilə razılaşdırılmaqla təsdiq edilir.*[16]

*5. "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinə əsasən, vətəndaşı dövlət sirri ilə işləməyə buraxmaqdan imtina edilməsi üçün əsaslar aşağıdakılardır:*[17]

*məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilməsi;*

*Azərbaycan Respublikasının Konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlərə, eləcə də digər xüsusilə ağır və ağır cinayətlərə görə məhkum edilməsi (məhkumluğun ödənilməsindən və ya götürülməsindən asılı olmayaraq);*

*bu hissənin üçüncü abzasında göstərilən cinayətlərə görə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq, tutulması və ya barəsində hər hansı qətimkan tədbirinin seçilməsi (azad edilənədək, qətimkan tədbirinin müddəti bitənədək və ya qətimkan tədbiri ləğv edilənədək);*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi siyahıya uyğun olaraq, dövlət sirri təşkil edən məlumatlarla işləməyi istisna edən xəstəliklərinin olması;*

*xarici ölkədə daimi yaşaması;*

*Azərbaycan Respublikasının vətəndaşlığından çıxmaq barədə Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə və ya Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə müraciət etməsi və ya barəsində Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi ilə bağlı icraata başlanılması;*

*yoxlama tədbirləri nəticəsində dövlət sirri ilə işləməyə buraxılacaq şəxsin Azərbaycan Respublikasının təhlükəsizliyi üçün təhlükə törədən hərəkətlərinin aşkara çıxarılması;*

*yoxlama tədbirlərindən boyun qaçırması və ya qəsdən yalan anket məlumatları verməsi.*

*Vətəndaşın dövlət sirri ilə işləməyə buraxılmasından imtina edilməsi barədə qərarı təşkilat rəhbəri yoxlama tədbirlərinin nəticələrini nəzərə almaqla, fərdi qaydada qəbul edir. Vətəndaşın həmin qərardan şikayət vermək hüququ vardır.*

*Tərkibində dövlət sirri olan arxiv sənədlərindən istifadəyə, onların məxfiləşdirildiyi gündən məxfi məlumatlar üçün 10 ildən, tam məxfi məlumatlar üçün 20 ildən, xüsusi əhəmiyyətli məlumatlar üçün 30 ildən, məxfilik dərəcəsindən asılı olmayaraq şəxsin kəşfiyyat, əks-kəşfiyyat, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanların əməkdaşı olmasını və ya bu orqanlarla konfidensial əsaslarla əməkdaşlıq edən, yaxud əməkdaşlıq etmiş şəxslərin şəxsiyyətini müəyyən etməyə imkan verən məlumatlar üçün 75 ildən sonra icazə verilir. Həmin müddətlər Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın rəyi ilə uzadıla bilər.*[18]

6. Dövlət sirri təşkil edən məlumatların məxfilik dərəcələrinə uyğun olaraq aşağıdakı buraxılış formaları müəyyən edilir:[19]

**birinci forma** - xüsusi əhəmiyyətli məlumatlarla işləməyə buraxılan vətəndaşlar üçün;

**ikinci forma** - tam məxfi məlumatlarla işləməyə buraxılan vətəndaşlar üçün;

**üçüncü forma** - məxfi məlumatlarla işləməyə buraxılan vətəndaşlar üçün.

Vətəndaşların məxfilik dərəcəsi daha yüksək olan məlumatlarla işləməyə buraxılışının olması, onların məxfilik dərəcəsidaha aşağı olan məlumatlarla tanış olmağa buraxılmasına əsas verir.

Vətəndaşların birinci və ikinci formalar üzrə işləməyə buraxılışının rəsmiləşdirilməsi ~~və yenidən rəsmiləşdirilməsi~~ ilə bağlı olan yoxlama *tədbirlərini təhlükəsizlik orqanı (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğu, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti)* əməliyyat-axtarış fəaliyyətini həyata keçirən orqanlarla və dövlət sirrinin mühafizəsi üzrə bölmələrlə qarşılıqlı əlaqədə həyata *keçirir.*[20]

Bu Qaydanın 26-cı bəndində göstərilən hallar istisna olmaqla, vətəndaşların üçüncü forma üzrə işləməyə buraxılışının rəsmiləşdirilməsi *təhlükəsizlik orqanı tərəfindən (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğu, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən)* ~~təhlükəsizlik orqanı tərəfindən~~ yoxlama tədbirləri keçirilmədən təşkilat rəhbəri tərəfindən həyata keçirilir.[21]

Vətəndaşlara rəsmiləşdirilmiş buraxılış formasının onların işləməyə buraxıldığı məlumatların məxfilik dərəcəsinə uyğunluğuna nəzarəti təmin etmək təşkilat rəhbərinin borcudur.

7. Bu Qaydanın 27 və 28-ci bəndlərində nəzərdə tutulan hallar istisna olmaqla, müddətli əmək müqaviləsi ~~(saziş)~~ ilə işə qəbul edilən və ya 18 yaşına çatmayan vətəndaşları bir qayda olaraq, xüsusi əhəmiyyətli və tam məxfi məlumatlara buraxılış rəsmiləşdirilmir.[22]

8. Dövlət sirrinin mühafizəsi üzrə bölmələrə, həmçinin ştat cədvəllərində belə bölmələrin nəzərdə tutulmadığı

təşkilatlarda məxfi kargüzarlıq işlərinin aparılması üçün işə qəbul edilən vətəndaşlara, əgər icra edilən işin xarakteri onlara birinci forma üzrə buraxılış verilməsini tələb etmirsə, ikinci forma üzrə buraxılış rəsmiləşdirilir.

9. Hərbi nümayəndəliklərin hərbi qulluqçularının və mülki şəxslərinin (bundan sonra - əməkdaş) dövlət sirri ilə işləməyə buraxılması haqqında qərar həmin hərbi nümayəndəliyin rəhbəri tərəfindən qəbul edilir. Hərbi nümayəndəliyin əməkdaşlarına dövlət sirri ilə işləməyə buraxılışın rəsmiləşdirilməsi nümayəndəliyin yerləşdiyi təşkilatın dövlət sirrinin mühafizəsi üzrə bölməsi vasitəsi ilə həyata keçirilir.

Təşkilatların filiallarında (xüsusiləşdirilmiş bölmələrdə, daimi fəaliyyət göstərən ekspedisiyalarda və s.) işləyən və onların yerləşdiyi ərazidə yaşayan vətəndaşlar üçün xüsusi əhəmiyyətli, tam məxfi və məxfi məlumatlarla işləməyə buraxılış həmin filialların (bölmələrin, ekspedisiyaların) rəhbərləri tərəfindən rəsmiləşdirilir. Bu halda yoxlama tədbirləri həmin filialların yerləşdiyi *təhlükəsizlik orqanının (prokurorluq orqanlarında Azərbaycan Respublikası Baş Prokurorluğunun, daxili işlər orqanlarında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin)* ~~təhlükəsizlik orqanının~~ ərazi üzrə orqanları tərəfindən həyata keçirilir. [23]

10. Təşkilatlar tərəfindən tam məxfi inşaat-quraşdırma işlərinin yerinə yetirilməsinə cəlb edilmiş hərbi-inşaat dəstələrinin hərbi qulluqçuları, müvafiq buraxılış formaları olmadıqda, belə işlərə həmin təşkilat rəhbərləri tərəfindən və yalnız *təhlükəsizlik orqanı tərəfindən (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğu, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən)* ~~təhlükəsizlik orqanı tərəfindən~~ yoxlama tədbirləri keçirildikdən, müəyyən edilmiş qaydada ikinci forma üzrə işləməyə buraxılış rəsmiləşdirildikdən sonra buraxılırlar.[24]

Göstərilən hərbi qulluqçuların məxfi və ya qeyri-məxfi işlərin görülməsi üçün rejimli obyektlərin* texniki ərazisinə buraxılışı komandanlıq tərəfindən verilmiş üçüncü forma üzrə işləməyə buraxılış haqqında arayış əsasında həyata keçirilir.

11. Müddətindən asılı olmayaraq, respublikanın xaricdəki təşkilatlarına (səfirliklərə, beynəlxalq təşkilatlar yanındakı nümayəndəliklərə, konsulluqlara, ticarət nümayəndəliklərinə və s.) ezam olunan vətəndaşlar xaricdə olduqları dövr ərzində ehtiyac yarandıqda məxfi məlumatlarla işləməyə həmin təşkilatların rəhbərləri tərəfindən buraxılırlar.

Xaricə üzən gəmilərin ekipaj üzvləri və belə gəmilərdə işləmək üçün buraxılışı olan digər vətəndaşlar, gəmilərin kapitanları tərəfindən, yalnız öz vəzifə (funksional) borclarını yerinə yetirmək üçün zəruri olan həcmdə tam məxfi və məxfi məlumatlarla işləməyə buraxılırlar.

12. Xüsusi daşımalarla**, məxfi məmulatların yedəyə alınması ilə məşğul olan və ya rejimli obyektlərə reyslər edən qatar briqadalarının, gəmi ekipajlarının və digər nəqliyyat vasitələrinin (silahlı qüvvələrin nəqliyyat vasitələri istisna olmaqla) heyət üzvləri üçüncü forma üzrə göstərilən briqada və ekipajların komanda heyəti isə ikinci forma üzrə işləməyə buraxılış alırlar.

13. Təşkilatda dövlət sirri ilə işləməyə buraxılışla bağlı vəzifələrin siyahısı *təhlükəsizlik orqanı (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğu, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti)* ilə razılaşdırılmaqla təşkilat rəhbəri tərəfindən təsdiq edilmiş vəzifələr nomenklaturu (forma 1) ilə müəyyən edilir. Vəzifələr nomenklaturu təşkilatın dövlət sirrinin mühafizəsi üzrə bölməsi tərəfindən təşkilatın uyğun bölmə rəhbərlərinin iştirakı ilə işlənib hazırlanır. Vəzifələr nomenklaturunda dəyişikliklər və əlavələr onun təsdiq edildiyi qaydada aparılır.[25]

Vəzifələr nomenklaturuna 5 ildə bir dəfədən gec olmayaraq yenidən baxılır.

Vəzifələr nomenklaturu (forma 1) qüvvədən düşdükdən sonra 5 il saxlanılır və bundan sonra aktla məhv edilir.

Müəyyən edilmiş qaydada işlənib hazırlanmış vəzifələr nomenklaturu razılaşdırılmaq üçün *təhlükəsizlik orqanına (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğuna, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinə)* göndərilərkən, bələdçi məktubda əvvəlki nomenklaturun nə vaxt və hansı orqan ilə razılaşdırıldığı, həmin nomenklaturda birinci, ikinci və üçüncü formalar üzrə işləməyə buraxılışlarının rəsmiləşdirilməsi nəzərdə tutulan vəzifələrin sayı və göstərilən vəzifələrin sayının yeni nomenklaturda dəyişməsinin səbəbləri göstərilir.

Təşkilatın filialının vəzifələr nomenklaturu *təhlükəsizlik orqanına (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğuna, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinə)* razılaşdırılmaq üçün göndərilməzdən öncə tabeliyində olduğu təşkilatın dövlət sirrinin mühafizəsi üzrə bölməsi ilə razılaşdırılır.

14. Vətəndaşın buraxılış forması onun tanış olmağa buraxıldığı məlumatların məxfilik dərəcəsinə uyğun olmadıqda buraxılış forması dəyişdirilməlidir.

Buraxılış formasının birincidən ikinciyə (üçüncüyə) və ya ikincidən üçüncüyə dəyişdirilməsi (azaldılması) təşkilat rəhbərinin sərəncamı ilə, vərəqənin (forma 3) 8-ci sütununda uyğun qeydiyyat aparılmaqla rəsmiləşdirilir. İstehsalat zərurəti yarandığı hallarda təşkilat rəhbəri *təhlükəsizlik orqanı tərəfindən (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğu, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən)* ~~təhlükəsizlik orqanı tərəfindən~~ təkrar yoxlama tədbirləri keçirilmədən vətəndaşın buraxılış formasını bərpa edə bilər.

Zəruri hallarda buraxılış formasının yüksəldilməsi bu Qayda ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

15. "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun 24-cü maddəsinə uyğun olaraq, vətəndaşın dövlət sirri ilə işləməyə buraxılmasına təşkilat rəhbərinin qərarı ilə aşağıdakı hallarda xitam verilir:[26]

təşkilati və (və ya) ştat tədbirləri ilə əlaqədar onunla bağlanmış əmək müqaviləsinə xitam verildikdə;[27]

əmək müqaviləsinə əsasən, dövlət sirrinin mühafizəsi üzrə götürdüyü öhdəlikləri bir dəfə pozduqda;[28]

bu Qaydanın 5-ci bəndinə uyğun olaraq, vətəndaşı dövlət sirri ilə işləməyə buraxmaqdan imtina edilməsi üçün əsas verən hallar yarandıqda.[29]

Vətəndaşın dövlət sirri ilə işləməyə buraxılmasına xitam verilməsi, təşkilatın dövlət sirrinin mühafizəsi üzrə bölməsi və vətəndaşın işlədiyi bölmə tərəfindən hazırlanmış və təşkilat rəhbəri tərəfindən təsdiq edilmiş müvafiq yazılı rəy əsasında rəsmiləşdirilir.

Bu fakt haqqında *təhlükəsizlik orqanına (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğuna, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinə)* yazılı məlumat verilir və həmçinin vərəqənin (forma 3) 10-cu sütununda müvafiq qeyd aparılır.

~~Vətəndaşın dövlət sirri ilə işləməyə buraxılmasına xitam verilməsi onunla əmək müqaviləsinin (sazişinin) pozulması üçün əsas ola bilər, bir şərtlə ki, bu cür şərtlər əmək müqaviləsində (sazişində) nəzərdə tutulmuş olsun.~~

~~Vətəndaşın dövlət sirri ilə işləməyə buraxılmasına xitam verilməsi və bunun əsasında onunla əmək müqaviləsinin (sazişinin) pozulması haqqında təşkilat rəhbərinin qərarından şikayət edilə bilər.~~[30]

Vətəndaşın dövlət sirri ilə işləməyə buraxılmasının məqsədəuyğun olmadığı barədə *təhlükəsizlik orqanının (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğunun, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin)* rəyi *habelə xarici dövlətlərdə müvəqqəti yaşayan vətəndaşlara münasibətdə Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəyi* həmin vətəndaşın dövlət sirri ilə işləməyə buraxılmasına xitam verilməsi üçün mütləq əsasdır.[31]

Dövlət sirrinin mühafizəsi üzrə struktur bölmələr təşkilatda işləyənlərin və dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılan vətəndaşların məlumatlılığının qeydiyyatını aparır (forma 16). Qeydiyyat vərəqələri ayrıca işdə daxili qeydiyyat vərəqələri üzrə qeydiyyata götürülərək saxlanılır.

Vətəndaşların dövlət sirri ilə işləməyə buraxılması ilə bağlı yazışmalar məxfi sənədlər üçün müəyyən edilmiş qaydada aparılır.

## *II. Dövlət sirri ilə işləməyə buraxılışın rəsmiləşdirilməsi*[32]

16. Vətəndaşlara xüsusi əhəmiyyətli, tam məxfi və məxfi məlumatlara buraxılışın rəsmiləşdirilməsi (yenidən rəsmiləşdirilməsi) üçün sənədlərin hazırlanması təşkilatın kadrlar idarəsi, şöbəsi (bundan sonra - kadr aparatı) tərəfindən, o olmadıqda isə kadr işini aparan işçilər tərəfindən aparılır. Buraxılışın rəsmiləşdirilməsi məsələləri ilə əlaqədar olaraq vətəndaşları *təhlükəsizlik orqanlarına (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğuna, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinə)* və dövlət sirrinin mühafizəsi üzrə bölmələrə göndərmək qadağandır.[33]

17. *Dövlət sirri ilə işləməyə buraxılışı rəsmiləşdirilən vətəndaşlar belə məlumatlarla işləməyə buraxılmaqdan imtina edilməsinə səbəb olan xəstəliklərinin olmaması barədə tibbi arayışı kadr aparatına təqdim edir və anket (forma 2) doldururlar. Onlar anketdə doğru məlumatlar göstərməyə borcludurlar.*[34]

*İşə (xidmətə) qəbulu rəsmiləşdirilən vətəndaşla söhbət zamanı kadr aparatının işçiləri anketdə göstərilən məlumatları onun şəxsi sənədləri (pasport, şəxsiyyət vəsiqəsi, hərbi bilet, əmək kitabçası, təhsil haqqında diplom və s.) ilə üzləşdirir, anketin ayrı-ayrı suallarını dəqiqləşdirir, anket suallarında nəzərdə tutulmayan maraq doğuran məlumatları müəyyənləşdirir, son bir il ərzində vətəndaşdan məxfi işlərlə, sənədlərlə və məlumatlarla əlaqəsi olub-olmadığını, onun dövlət sirri təşkil edən məlumatları yaymayacağı barədə öhdəlik götürüb-götürmədiyini, rejimli obyektlərdə işləyib-işləmədiyini (xidmət edib-etmədiyini) aydınlaşdırır, zəruri arayış və sənədləri sorğu edir və vətəndaşı dövlət sirrini yaymamaq barədə öhdəliyin (forma 9 və ya 9-1) mətni ilə tanış edirlər. İki nüsxədə tərtib edilmiş öhdəliyin (forma 9 və ya 9-1) bir nüsxəsi işçinin şəxsi işində, ikinci nüsxəsi isə dövlət sirrinin mühafizəsi üzrə bölmədə saxlanılır. Bu öhdəliklər kadr aparatında əmək müqavilələrinin qeydiyyat jurnalında qeydiyyata götürülür.*

Vətəndaşla söhbət zamanı və ya anket məlumatlarına əsasən ona dövlət sirri ilə işləməyə buraxılışın rəsmiləşdirilməsi haqqında qərarın qəbul edilməsinə təsir edəcək hallar və yaxud onun əvvəllər xüsusi əhəmiyyətli və ya tam məxfi məlumatlarla işləməsi müəyyən olunarsa, onda kadr aparatının işçiləri söhbətin nəticələri barədə təşkilatın dövlət sirrinin mühafizəsi üzrə bölməsinin rəhbərinə şifahi və ya yazılı məlumat verməyə borcludurlar.

*İşə qəbulu əmək müqaviləsi ilə həyata keçirilən vətəndaşın dövlət sirri təşkil edən məlumatları yaymamaq barədə dövlət qarşısında götürdüyü öhdəliyi Azərbaycan Respublikasının əmək qanunvericiliyinə uyğun olaraq, həmçinin "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinin tələbləri nəzərə alınmaqla, əmək müqaviləsinə əlavə kimi rəsmiləşdirilir.*

*Dövlət sirri ilə işləməyə buraxılışı rəsmiləşdirilən vətəndaşın anketi kadr aparatının işçisi tərəfindən imzalanır, möhürlə təsdiq edilir. Anket, tibbi arayış və vətəndaş tərəfindən imzalanmış öhdəlik (forma 9 və ya 9-1) dövlət sirrinin mühafizəsi üzrə bölməyə təqdim edilir.*

18. Dövlət sirrinin mühafizəsi üzrə bölmə:

vətəndaşların buraxılış tələb olunan *vəzifələrə* rəsmiləşdirilməsi üçün kadr aparatına tövsiyələr hazırlayır;[35]

zəruri hallarda *dövlət sirri ilə işləməyə buraxılışı rəsmiləşdirilən* vətəndaşın axırıncı bir ildə işlədiyi təşkilatın dövlət sirrinin mühafizəsi üzrə bölməsinə onun buraxılış vərəqəsinin (forma 3) göndərilməsi üçün sorğu verir;[36]

*təhlükəsizlik orqanı tərəfindən (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğu, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan*

*Respublikasının Dövlət Sərhəd Xidməti, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən)* yoxlama tədbirlərinin keçirilməsinin məqsədəuyğunluğunu müəyyənləşdirmək məqsədi ilə buraxılış rəsmiləşdirilən (yenidən rəsmiləşdirilən) vətəndaş haqqında kadr aparatının təqdim etdiyi və ya göstərilən vətəndaşın əvvəlki iş yerlərinin dövlət sirrinin mühafizəsi üzrə bölməsindən alınmış ilkin materialları qiymətləndirir;[37]

buraxılış üzrə qeydiyyat sənədlərini - vərəqələri (forma 3 və 8) və məxfi məlumatlara buraxılan şəxslərin siyahısını (forma 6) rəsmiləşdirir və saxlayır;

buraxılış üzrə tələblərin icrasına nəzarəti həyata keçirir.

19. Dövlət sirrinin mühafizəsi üzrə bölmə birinci və ikinci forma üzrə işləməyə buraxılışın rəsmiləşdirilməsi üçün aşağıdakı sənədləri *təhlükəsizlik orqanına (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğuna, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinə)* göndərir:[38]

a) dövlət sirri ilə işləməyə buraxılışın rəsmiləşdirilməsinin zəruriliyi barədə əsaslandırma məktubu. Məktubda vətəndaşın rəsmiləşdirildiyi vəzifə, onun təsdiq edilmiş vəzifələr nomenklaturunda sıra nömrəsi, həmin vəzifə üzrə dövlət sirri ilə işləməyə buraxılmış şəxslərin sayı, vətəndaşın əvvəllər malik olduğu buraxılışının nömrəsi, keçirilən yoxlama tədbirlərinin qurtarma tarixi və onu keçirən *təhlükəsizlik orqanının (prokurorluq orqanlarında Azərbaycan Respublikası Baş Prokurorluğunun, daxili işlər orqanlarında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin)* adı (yenidən rəsmiləşdirilmə zamanı - yenidən rəsmiləşdirmənin səbəbi) göstərilir, buraxılış haqqında qərar qəbul edilməsinə təsir edə bilən hallar qeyd edilir;[39]

b) anket (forma 2);

c) qeydiyyat jurnalında (forma 10) qeydiyyata götürülmüş buraxılış vərəqəsi (forma 3) bir nüsxədə;

ç) birinci və ikinci formalar üzrə buraxılışın qeydiyyat vərəqəsi (forma 5) bir nüsxədə. Xüsusi əhəmiyyətli və ya tam məxfi məlumatlarla işləməyə buraxılışı rəsmiləşdirilən vətəndaş təşkilatın yerləşdiyi ərazidə daimi olaraq yaşamırsa, bu halda *təhlükəsizlik orqanına (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğuna, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinə)* qeydiyyat vərəqəsinin (forma 5) əlavə nüsxəsi göndərilir;

d) *dövlət sirri ilə işləməyə* buraxılışı rəsmiləşdirilən vətəndaşın və onun yaxın qohumlarının (ata, ana, qardaş, bacı və 16 yaşından yuxarı uşaqları), həmçinin arvadının (ərinin), o cümlədən keçmiş arvadının (ərinin) ümumi siyahısı (forma 4) və hər bir soyada ayrıca siyahı (forma 4) tərtib edilməklə iki nüsxədə.[40]

20. Dövlət sirrinə üçüncü forma üzrə işləməyə buraxılış vətəndaşın işlədiyi bölmənin rəhbərinin təqdimatı əsasında rəsmiləşdirilir. Dövlət sirrinə üçüncü forma üzrə işləməyə buraxılış rəsmiləşdirilən vətəndaş üçün kadr aparatı tərəfindən ümumi (əlifba sırası ilə) siyahı (forma 6) hazırlanır, dövlət sirrinin mühafizəsi üzrə bölmə ilə razılaşdırılaraq, təşkilatın rəhbəri tərəfindən təsdiq edilir. Bu Qaydanın 26-cı bəndində göstərilən hallarda isə üçüncü forma üzrə işləməyə buraxılış rəsmiləşdirilərkən əlavə olaraq, dövlət sirrinin mühafizəsi üzrə bölmə tərəfindən 19-cu bəndin "d" yarımbəndinə uyğun olaraq siyahılar (forma 4) tərtib olunur.

21. Vətəndaşın xüsusi əhəmiyyətli və ya tam məxfi məlumatlarla işləməyə buraxılması ilə əlaqədar olaraq, *təhlükəsizlik orqanı tərəfindən (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğu, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən)* ~~təhlükəsizlik orqanı tərəfindən~~ yoxlama tədbirlərinin keçirilməsi haqqında qeydin əks olunduğu vərəqə (forma 3) dövlət sirrinin mühafizəsi üzrə bölməyə bələdçi məktubsuz qaytarılır və *dövlət sirrini yaymamaq barədə öhdəliklə (forma 9 və ya 9-1)* birlikdə, əlifba sırası ilə tərtib edilmiş xüsusi kartotekada saxlanılır. Ehtiyac olduqda belə, kartotekalar struktur bölmələri üzrə də aparıla bilər.[41]

Vərəqə (forma 3) doldurulduğu andan etibarən məxfi sənəd sayılır və işçilərin buraxılış vərəqələrinin qeydiyyat jurnalında (forma 10) onların saxlanılmasına cavabdeh olan şəxslər tərəfindən qeydiyyata götürülür.

Birinci və ikinci forma üzrə *işləməyə buraxılışı rəsmiləşdirilən* hər bir vətəndaşa, yalnız bir vərəqə (forma 3) açılır. Vətəndaş başqa təşkilatlara işə keçdikdə bu vərəqə həmin təşkilatın dövlət sirrinin mühafizəsi üzrə bölməsinin sorğusu əsasında onlara göndərilir və bu barədə *təhlükəsizlik orqanına (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğuna, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinə)* məlumat verilir.[42]

İşçiyə yalnız o halda yeni vərəqə (forma 3) açılır ki, əvvəllər açılmış vərəqə bu Qaydanın 34-cü bəndində şərh edilən səbəblərdən məhv edilmiş olsun.

22. Vətəndaşın xüsusi əhəmiyyətli və ya tam məxfi məlumatlarla işləməyə buraxılışı haqqında qərar*təhlükəsizlik orqanı tərəfindən (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğu, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən),* ~~təhlükəsizlik orqanı tərəfindən~~ yoxlama tədbirləri keçirildikdən sonra təşkilat rəhbərinin sərəncamı vərəqənin (forma 3) 8-ci sütununda, məxfi məlumatlara buraxılış haqqında qərar isə məxfi məlumatlara buraxılmalı olan şəxslərin siyahısında (forma 6) qeyd edilərək

rəsmiləşdirilir, təşkilat rəhbərinin imzası və təşkilatın möhürü ilə təsdiq edilir.

23. Azərbaycan Respublikası Milli Məclisinin deputatları, Azərbaycan Respublikası Hesablama Palatasının üzvləri, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinə əsasən vəzifəyə təyin edilmiş şəxslər, öz vəzifələrinin icrası zamanı hakimlər, habelə dövlət sirri təşkil edən məlumatlarla bağlı cinayət işləri üzrə cinayət mühakimə icraatında müdafiəçi qismində çıxış edən vəkillər dövlət sirri ilə işləməyə *Dövlət sirri haqqında* Qanunla nəzərdə tutulmuş yoxlama tədbirləri keçirilmədən buraxılırlar.[43]

Dövlət hakimiyyəti orqanlarının tərkibinə daxil olan təşkilatların rəhbərlərinin dövlət sirri ilə işləməyə buraxılışı haqqında qərar bu orqanların rəhbərləri tərəfindən qəbul edilir. Vərəqələr (forma 3 və 8) dövlət hakimiyyəti orqanlarının dövlət sirrinin mühafizəsi üzrə bölmələrində saxlanılır və keçirilən yoxlama tədbirlərinin qurtarma tarixi, *dövlət sirri ilə işləməyə buraxılan* şəxslərin buraxılış forması və nömrəsi, həmçinin yoxlama tədbirlərini keçirən *təhlükəsizlik orqanının (prokurorluq orqanlarında Azərbaycan Respublikası Baş Prokurorluğunun, daxili işlər orqanlarında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin)* adı barədə bu təşkilatların dövlət sirrinin mühafizəsi üzrə bölmələrinə *yazılı* məlumat verilir.[44]

Dövlət hakimiyyəti orqanının tabeliyində olmayan və ilk dəfə dövlət sirri təşkil edən məlumatlarla işləməyə cəlb edilən təşkilatın rəhbərinin dövlət sirri ilə işləməyə buraxılması haqqında qərarı müəyyən olunmuş qaydada sifarişçi təşkilatın rəhbəri qəbul edir. Bu halda qeydiyyat vərəqələri (forma 3 və 8) sifarişçi təşkilatda saxlanılır.

24. Üçüncü forma üzrə işləməyə buraxılış almış hər bir şəxsə, dövlət sirrinin mühafizəsi üzrə bölmə tərəfindən vərəqə (forma 8) açılır. Vərəqənin 7-ci sütununda buraxılışın nömrəsi (siyahının (forma 6) nömrəsi və kəsr xətti ilə ayrılmaqla şəxsin siyahıda sıra nömrəsi), habelə, bu siyahının təşkilat rəhbəri tərəfindən təsdiq edildiyi tarix göstərilir.

Doldurulmuş vərəqələr dövlət sirrinin mühafizəsi üzrə bölmənin rəhbərinin imzası və möhürü ilə təsdiqlənərək, işçilərin buraxılış vərəqələrinin qeydiyyat jurnalında (forma 10) qeydiyyata götürülür. Bu vərəqələr məxfi məlumatlara buraxılmış şəxslərin həmin təşkilatda işlədiyi bütün dövr ərzində, birinci və ikinci formalar üzrə buraxılış vərəqələrindən ayrı olmaqla, dövlət sirrinə buraxılışın rəsmiləşdirilməsi barədə müqavilələrlə ~~(sazişlərlə)~~ (forma 9) birlikdə təşkilatın dövlət sirrinin mühafizəsi üzrə bölməsində saxlanılır. Məxfi məlumatlara buraxılmalı olan şəxslərin siyahıları (forma 6) ayrıca işdə daxili qeydiyyat vərəqələri üzrə qeydiyyata götürülərək saxlanılır.[45]

Vərəqələr (forma 8) və siyahı (forma 6) başqa təşkilatlara göndərilmir və vətəndaş işdən çıxdıqdan bir il sonra aktla məhv edilir.

Təşkilatda vətəndaşların məxfi məlumatlara buraxılışı bu Qaydaların 26-cı bəndinə uyğun olaraq, yalnız *təhlükəsizlik orqanı tərəfindən (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğu, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən)* ~~təhlükəsizlik orqanı tərəfindən~~ yoxlama tədbirləri keçirilməklə həyata keçirilirsə, onda *dövlət sirri ilə işləməyə buraxılışı rəsmiləşdirilən vətəndaşların* bu Qaydanın 19-cu bəndinin "d" yarımbəndinə uyğun olaraq tərtib edilmiş siyahıları (forma 4) və məxfi məlumatlara buraxılmalı olan şəxslərin siyahısı (forma 6) 1 nüsxədə tərtib edilərək bələdçi məktubla *təhlükəsizlik orqanına (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğuna, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinə)* göndərilir.[46]

Təşkilata qaytarılan siyahıda (forma 6) *təhlükəsizlik orqanı tərəfindən (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğu, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən)* ~~təhlükəsizlik orqanı tərəfindən~~ yoxlama tədbirlərinin keçirilməsi barədə qeyd edilir.[47]

Bu halda *təhlükəsizlik orqanı (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğu, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti)* tərəfindən siyahılarda (forma 6) qoyulan daxilolma nömrəsi buraxılışın nömrəsi hesab edilir. [48]

25. Hərbi xidmətdən ehtiyata buraxılmış vətəndaşın buraxılış tələb olunan işə rəsmiləşdirilməsi zamanı təşkilatın kadr aparatı xidmət zamanı onun dövlət sirri ilə işləməyə buraxılması haqqında hərbi biletdə xüsusi qeydin mövcudluğunu yoxlamağa, belə qeyd mövcud olduqda isə vərəqəni (forma 3) almaq üçün bu vətəndaşın yaşayış yeri üzrə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölməsinə sorğu göndərməyin zəruriliyi barədə təşkilatın dövlət sirrinin mühafizəsi üzrə bölməsinə məlumat verməyə borcludur.[49]

Hərbi biletdə yuxarıda göstərilən qeyd mövcud olduqda, təşkilat rəhbərinin vətəndaşı hərbi xidmətdən ehtiyata buraxıldığı gündən bir il ərzində əlavə yoxlama tədbirləri keçirilmədən dövlət sirri ilə işləməyə buraxmaq hüququ var. Bu halda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölməsi ndən alınmış vərəqənin (forma 3) 8-ci qrafasında müvafiq qeyd edilir. Təşkilatın dövlət sirrinin mühafizəsi üzrə bölməsi qeydiyyat vərəqəsini (forma 5) *təhlükəsizlik orqanının (prokurorluq orqanlarında Azərbaycan Respublikası Baş Prokurorluğunun, daxili işlər orqanlarında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin)* ünvanına göndərərək, vətəndaşın dövlət sirri ilə işləməyə buraxılması faktı haqqında *təhlükəsizlik orqanına (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğuna, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi*

*hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinə)* məlumat verir.[50]

Dövlət sirri ilə işləməyə buraxılışı olmuş ehtiyatda və ya istefada olan zabitlər, gizirlər (miçmanlar) işə rəsmiləşdirilən zaman vərəqənin (forma 3) göndərilməsi üçün müvafiq yaşayış yeri üzrə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölməsinə sorğu göndərilir.

26. Təşkilatların rəhbərlərinin məxfi məlumatlarla işləməyə buraxılışı (üçüncü forma üzrə), yalnız *təhlükəsizlik orqanı (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğu, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti)* tərəfindən yoxlama tədbirləri keçirilməklə rəsmiləşdirilir.

*Təhlükəsizlik orqanı (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğu, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti)* maraqlı dövlət hakimiyyəti orqanları ilə birlikdə, yalnız *təhlükəsizlik orqanı (prokurorluq orqanlarında Azərbaycan Respublikasının Baş Prokurorluğu, daxili işlər orqanlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, dövlət sərhədinin mühafizəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı, həmçinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti)* tərəfindən yoxlama tədbirlərinin keçirilməsi ilə məxfi məlumatlarla işləməyə buraxılışın rəsmiləşdirildiyi təşkilatları müəyyən edə bilər.

